# Cəbrayılın azad olunması: Azərbaycan torpaqlarının bərpasında mühüm mərhələ

**Müasir hərb tarixində taktiki və strateji üstünlükləri ilə seçilən Cəbrayıl döyüşü gələcəkdə hərb tarixinə önəmli hadisə kimi daxil ediləcəkdir.**

2018-ci ildə Nikol Paşinyanın Ermənistanda baş naziri təyin olunmasından sonra söylədiyi bəyanatlar və həyata keçirdiyi addımlar Azərbaycanla Ermənistan arasındakı münasibətlərin xeyli gərginləşməsinə səbəb oldu. Xüsusilə 2018-ci ilin mayında Paşinyanın "DQR"-in münaqişədə tərəf olaraq iştirakı ilə bağlı bəyanatı, 2019-cu ilin mayında Şuşada nümayiş etdirdiyi rəqsi, 2019-cu ilin avqustunda Xankəndidə söylədiyi "Qarabağ - Ermənistandır" ifadəsi, eləcə də 2019-cu ilin martında Ermənistan müdafiə naziri David Tonoyanın "yeni müharibə - yeni ərazilər" tezisi dövlətlər arasında qarşıdurmanı daha da artırdı. 2020-ci ilin iyulunda Tovuz istiqamətində baş verən döyüşlər isə artıq mövcud olan gərginliyi kritik həddə çatdırdı. Rusiya xarici işlər naziri Sergey Lavrov Tovuz döyüşlərinin eskalasiyasını Ermənistanın həyata keçirdiyini açıqlamışdır. Həmin döyüşlər zamanı general-mayor Polad Həşimovun şəhid olması Azərbaycanda geniş ictimai qəzəb yaratmış və iyulun 14-də Bakıda və digər bölgələrdə əhali hökumətdən Qarabağ məsələsini qəti şəkildə həll etməsini tələb etmişdir. Bu hadisələr Cəbrayılın azad olunması istiqamətində həyata keçirilən hərbi əməliyyatların siyasi və strateji fonunu formalaşdırdı.

2020-ci il sentyabrın 27-də başlayan ikinci Vətən müharibəsində Azərbaycan Ordusunun hücum əməliyyatlarında əsas strateji istiqamət Cəbrayıl rayonu oldu. Bu dövrdə ilkin döyüş əməliyyatlarından biri kimi Arazboyu əməliyyatları həyata keçirildi.

Cəbrayıl rayonunda cəbhə xətti boyunca uzanan Araz vadisi 4-5 km enində geniş düzənlikdən ibarətdir. Vadi cənub-qərbdən şimal-şərq istiqamətində Çaylaq çayı boyunca, cənub-şərq istiqamətində isə Araz çayı boyunca uzanır. Vadinin şimal-qərb hissəsini 150-200 metr hündürlükdə alçaq dağlar təşkil edir. Ərazinin kanallar şəbəkəsi və sıx bitki örtüyü burada müdafiəni əlverişli edir. Eyni zamanda, təpələrdə yerləşən mövqelər dar düzənliyin 5 km məsafədə vizual müşahidəsini təmin edir. Bu istiqamətin qorunmasını Ermənistan Silahlı Qüvvələrinin 9-cu "Müdafiə Ordusu" həyata keçirirdi.

Bütün bu çətinliklərə baxmayaraq, Azərbaycan Ordusu üçün təmas xətti boyunca nisbətən zəif mövqe yaradıla biləcək istiqamət məhz bura idi və relyef bu baxımdan əlavə üstünlük təmin edirdi. Hərbi əməliyyatlara başlamazdan əvvəl hərbçilər güclü təlimlər keçmiş və mühüm islahatlar həyata keçirilmişdi. Hücumun effektivliyini artırmaq məqsədilə, Çexiya istehsalı olan "Dana" tipli bütün mövcud özüyeriyən artilleriya qurğuları Cəbrayıl istiqamətində irəliləyən motoatıcı birləşmələrə dəstək verəcək şəkildə ayrıca artilleriya briqadasına birləşdirildi.

Cəbrayıl istiqamətindəki hücum iki ordu qrupu tərəfindən həyata keçirildi. Həmin qoşunlara general-mayor Hikmət Mirzəyev və general-mayor Mayis Bərxudarov rəhbərlik edirdi. Prezidentin mətbuat xidməti cənub istiqamətindəki bölmələri vahid korpus kimi təqdim etdi, ümumi əməliyyat komandanlığını isə general-polkovnik Kərəm Mustafayev yerinə yetirdi.



Döyüş sentyabr 27-də səhər saatlarında başladı. İlk mərhələlərdə Azərbaycan Hərbi Hava Qüvvələri Ermənistan Silahlı Qüvvələrinin "Müdafiə Ordusu"na məxsus hava hücumundan müdafiə sistemlərinin təxminən yarısını, eləcə də artilleriyanın təxminən 40%-ni neytrallaşdırdı.

Oktyabrın 1-də Cəbrayıl istiqamətində cəbhə xəttini yarmağa nail olan Azərbaycan bölmələri Nüzgar kəndi uğrunda döyüş əməliyyatlarını oktyabrın 3-dək davam etdirdi. Kənd daxilində gedən yaxın məsafəli döyüşlər zamanı ən azı bir ədəd T-72 tipli tank İsrail istehsalı olan "Spike" idarəolunan tank əleyhinə raket kompleksi və zirehli texnikalar məhv edildi.

Quru Qoşunlarının hərbi qulluqçusu Etibar Bozuyevin məlumatına əsasən, Nüzgar kəndi 8 gün davam edən döyüşlər nəticəsində azad olunur. Bu istiqamətdə aparılan döyüşlər Azərbaycan Ordusu üçün ağır itkilərlə nəticələnir. Bu əməliyyat zamanı şəhid olanlar arasında kapitanlar Həmid Cəfərli və Vüqar Nəcəfov, müddətdən artıq həqiqi hərbi xidmət qulluqçuları İlqar İsmayılov və Elvin Məmmədov, həmçinin əsgərlər Pərviz Məmmədov, Fuad Məhərrəmli, Fəxri Məmmədov və Cavanşir Həmidli yer alır. Müharibə dövründə əsgər Cavanşir Həmidli ilə "tv100" telekanalının müxbiri Burak Ersemiz tərəfindən müsahibə aparılmışdı. Onun 6 oktyabr tarixində şəhid olması, bu istiqamətdə döyüşlərin kəndin azad edilməsindən sonra da davam etdiyini göstərir.

Böyük Mərcanlı kəndi Cəbrayıl rayonunun işğal altında olan ən iri yaşayış məntəqələrindən biri hesab olunurdu. Sentyabrın 27-də bu istiqamətdə başlayan döyüş əməliyyatları İranla sərhədə yaxın ərazidə həyata keçirildiyindən, Araz çayının o tayında yaşayan azərbaycanlılar tərəfindən vizual şəkildə müşahidə edilirdi. Azərbaycan bölmələri burada ilkin olaraq yalnız bir dayaq məntəqəsini nəzarətə götürmüş, lakin kənd mərkəzinə qədər olan məsafə hələ də əhəmiyyətli dərəcədə böyük idi. Erməni silahlı qüvvələri xüsusilə "300 saylı post" istiqamətində ciddi müqavimət göstərirdi. Düşmənin xaotik şəkildə atdığı mərmilər və minalar əsasən yaşayış ərazilərinə düşür, bu da döyüş bölgəsinin sərhədyanı hissəsində təhlükəsizliyi ciddi şəkildə təhdid edirdi. Sentyabrın 28-də belə mərmilərdən biri İranın Ərdəbil ostanına daxil olan Parsabad şəhristanının Qaraqabaq kəndi yaxınlığında yerləşən əkin sahəsinə düşür.

Azərbaycan Ordusu sentyabrın 28-də 300 saylı postun ələ keçirilməsi məqsədilə intensiv artilleriya atəşinə başlayır. Döyüş prosesini İranın Şərqi Azərbaycan ostanına daxil olan Xudafərin şəhristanının Xələfbəyli kəndindən müşahidə etmək mümkün idi. Azərbaycan bölmələri erməni mövqelərinə təxminən 1,5 km məsafədə yaxınlaşaraq "TOS-1A" tipli ağır odsaçan artilleriya sistemindən istifadə etmişdi. Eyni istiqamətdə gedən döyüşlər İranın digər sərhədyanı yaşayış məntəqələrindən çəkilmiş videomateriallarda da aydın görünürdü. Həmin gün Xudafərin şəhristanına aid Qulubəyli kəndinin cənubunda qeydə alınmış kadrlarda Azərbaycan bölmələrinin Qazaxlar kəndi yaxınlığında, təxminən 5,5 km məsafədən "TOS-1A" vasitəsilə atəş açdığı müşahidə edilirdi.

Ağır artilleriyanın dəstəyi ilə Azərbaycan bölmələri sentyabrın 28-dən 29-a keçən gecə 300 saylı postu nəzarətə götürməyə nail olur. Lakin qısa müddət sonra mövqeləri bərpa edən erməni qüvvələri "Qrad" yaylım atəş sistemi ilə zərbə endirərək "TOS-1A" qurğusunu sıradan çıxara bilir.

Azərbaycan Ordusunun hücumunu dəf edən erməni bölmələri itirdikləri postu geri qaytarmaq məqsədilə əks-hücum əməliyyatına keçirlər. Sentyabrın 30-da baş vermiş döyüş nəticəsində erməni qüvvələri 300 saylı postu (187 nöqtə hündürlüyü) yenidən ələ keçirib həmin mövqeyə Ermənistan bayrağını sancmışdılar. Kənd uğrunda döyüşlər bu tarixdən sonra daha da intensiv xarakter alır.

Həmin gün bu istiqamətdə irəliləyən erməni tankı Türkiyə istehsalı TB-2 pilotsuz uçuş aparatının (PUA) zərbəsi ilə məhv edilir, PUA-nın manevr edərək son anda kursunu dəyişməsi nəticəsində zərbə zirehli təkərin-tırtılın istiqamətinə dəyir. Ən şiddətli döyüşlər isə ermənilərin ələ keçirdiyi təpə və onun ətrafındakı mövqelər uğrunda gedən mübarizə zamanı baş verir. Postlarını itirmək istəməyən erməni bölmələrinin nizamsız şəkildə atdığı mina mərmilərindən üçü İran ərazisinə düşür. Xudafərin şəhristanına daxil olan Pərvizxanlı kəndinə endirilən zərbə nəticəsində 6 yaşlı uşaq ağır yaralanır. Hadisə ilə bağlı erməni tərəfi məsuliyyəti Azərbaycan Ordusunun üzərinə atsa da, İran mətbuatı zərbələrin Ermənistanın "Müdafiə Ordusu" qüvvələri tərəfindən endirildiyini qeyd edir.

Erməni qüvvələrinin güclü müqavimətinə baxmayaraq, 300 saylı post (187 yüksəkliyi) oktyabrın 2-si gecə saatlarında Azərbaycan Ordusu tərəfindən tam nəzarətə götürülür. Döyüşlər zamanı Daxili Qoşunların xüsusi təyinatlı bölmələrinin kapitanı Türkay Hüseynli və gizir Faiq Həsənov qəhrəmancasına həlak olur.

Oktyabrın 3-də Azərbaycan bölmələri Böyük Mərcanlı kəndi üzərində tam nəzarəti bərqərar edir. Oktyabrın 4-də isə kənd daxilində baş vermiş döyüşlərin yeni görüntüləri yayımlanır. Erməni bölmələri Yuxarı Mərcanlı istiqamətindən əks-hücum təşkil edərək kəndi geri almağa cəhd göstərir, lakin hücumun ilkin mərhələsindəcə onların zirehli texnikalarının mövqeləri müəyyən edilir. Azərbaycan Ordusunun "Spike" idarəolunan raket sistemləri ilə həyata keçirdiyi dəqiq zərbələr nəticəsində düşmənin tank kolonları məhv edilir, ümumilikdə azı 10 ədəd erməni tankı sıradan çıxarılır.

Oktyabrın 3-dən etibarən Azərbaycan qoşunları həm də Lələtəpə istiqamətində Ermənistan müdafiəsini təxminən 6-8 km-lik zolaqda yararaq Cəbrayıl istiqamətində irəliləyiş əldə edir. Qeyd edək ki, Cəbrayıl rayonu həm tarixi, həm də strateji əhəmiyyətə malik ərazidir. Bu səbəbdən onun azad edilməsi Ermənistan müdafiə strukturunda ciddi destabilizasiya yaratmış və Azərbaycan Ordusunun əməliyyat-strateji məqsədlərinin icrası üçün həlledici rol oynamışdır. Rayonun strateji mövqeyinə görə, erməni birləşmələrinin qurduğu əsas müdafiə xətti - "Ohanyan səddi" - məhz bu zonadan keçirdi. 1994-2020-ci illər ərzində, keçmiş müdafiə naziri Seyran Ohanyanın nəzarəti altında salınıb, sonradan gücləndirilmiş bu müdafiə zolağının uzunluğu təxminən 200 kilometr təşkil edirdi. Ohanyan səddi erməni qüvvələrinin döyüş planlaşdırmasında və düşmənin hərbi irəliləyişinin dayandırılmasında mühüm funksiyanı yerinə yetirirdi; onun quruluşunda yüksək dağlıq relyef və çətin keçidlərdən istifadə edilməklə keçilməz sədd məntiqi tətbiq olunmuşdu.

*(ardı var)*

***Gülşən HÜSEYNOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı***